**“Dövlət qulluqçularının aylıq vəzifə maaşlarının müəyyən edilməsi və “Dövlət qulluqçularının aylıq vəzifə maaşının müəyyən edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 13 mart tarixli 3787 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 18 iyun tarixli 1268 nömrəli Sərəncamında dəyişiklik edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 18 iyun tarixli 1268 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, 6, maddə 1104, 7, maddə 1250, 8, maddə 1440) ilə təsdiq edilmiş 2 nömrəli Əlavə - “Azərbaycan Respublikasında dövlət qulluqçularının aylıq vəzifə maaşları”nda aşağıdakı dəyişikliklər edilsin:

1. 1.1.5-ci yarımbəndə ikinci halda “şöbənin müdiri,” sözlərindən sonra “Azərbaycan Respublikası Nazirlər Kabinetinin İşlər müdiri,” sözləri əlavə edilsin.
2. 1.2.1 -ci yarımbənddən “Azərbaycan Respublikası Nazirlər Kabinetinin İşlər müdiri,” sözləri çıxarılsın.
3. 1.2.6-cı yarımbəndə ikinci halda “müdirinin müavini,” sözlərindən sonra “Azərbaycan Respublikası Nazirlər Kabinetinin İşlər müdirinin müavini,” sözləri əlavə edilsin.
4. 1.2.7-ci yarımbənddən “Azərbaycan Respublikası Nazirlər Kabinetinin işlər müdirinin müavini,” sözləri çıxarılsın.
5. 1.3.13-cü yanmbəndə ikinci halda “mühasib” sözündən sonra Azərbaycan Respublikası Nazirlər Kabinetinin İşlər müdirinin köməkçisi” sözləri əlavə edilsin.
6. 1.3.17-ci yarımbənddə “və” sözü vergül işarəsi ilə əvəz edilsin və “aparatlarında” sözündən sonra Azərbaycan Respublikası Nazirlər Kabinetinin İşlər İdarəsində” sözləri əlavə edilsin.
7. 1.3.21 -ci yarımbənddən “ Azərbaycan Respublikası Nazirlər Kabinetinin İşlər İdarəsində” sözləri çıxarılsın.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 30 aprel 2020-ci il
2003